**Azərbaycan Vəkillər Kollegiyasının sədri Tbilisidə keçirilən konfransda COP29-un beynəlxalq əhəmiyyətindən danışıb**

Aprelin 18-də Tbilisidə "Hüquq və biznes icmalarının maarifləndirilməsi və nüfuzu" mövzusunda beynəlxalq hüquq konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, Böyük Britaniyanın Tbilisidəki səfirliyinin, İngiltərə və Uels Hüquq Cəmiyyəti və Gürcüstan Vəkillər Kollegiyasının birgə təşkil etdiyi tədbirdə ölkəmizi Azərbaycan Vəkillər Kollegiyasının sədri Anar Bağırovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

Konfransda beynəlxalq arbitraja xüsusi diqqət yetirməklə hüquqi xidmətlər, mübahisələrin həlli, sanksiyalar rejimi və qanunun aliliyi barədə məruzələr dinlənilib, biznes mühitinin inkişafında ingilis hüquq sistemi və onun Cənubi Qafqaz regionunda tətbiqi barədə fikir mübadiləsi aparılıb.

Anar Bağırov konfransda çıxış edərək ölkəmizdə hüquqi cəmiyyətin inkişaf perspektivləri, biznes mühitinin daha da yaxşılaşdırılması istiqamətində atılan mütərəqqi addımlar, vəkillik fəaliyyətinin inkişaf perspektivləri barədə ətraflı məlumat verib. Bildirib ki, forum beynəlxalq arbitraj, mübahisələrin həlli və qanunun aliliyi kimi həyati əhəmiyyətli sahələrdə hüquqi təcrübənin çərçivəsinin formalaşdırılmasında beynəlxalq əməkdaşlıq üçün geniş imkanlar açır.

Vəkillər Kollegiyasının sədri bu ilin noyabrında Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının 29-cu Tərəflər Konfransına (COP29) ev sahibliyi edəcəyini diqqətə çatdırıb. Vurğulayıb ki, bu, təkcə kritik iqlim problemlərini həll etmək üçün deyil, həm də hüquqi çərçivələr də daxil olmaqla, müxtəlif sektorlar üzrə əməkdaşlığı genişləndirmək üçün fürsət olacaq. Azərbaycanın mühüm ticarət yolları boyunca əlverişli mövqedə yerləşdiyini vurğulayan A.Bağırov deyib ki, xüsusilə Rusiya-Ukrayna müharibəsi fonunda Mərkəzi Asiya dövlətləri Qərblə ticarət əməliyyatlarını Azərbaycan və Gürcüstan vasitəsilə həyata keçirir. Bu kontekstdə ingilis hüququ ilə Azərbaycan hüququ arasında müqayisə olunmalı müxtəlif aspektlər var.

Azərbaycanda bu sahədə görülən işlərdən danışan Kollegiya sədri vurğulayıb ki, "Ələt Azad İqtisadi Zonası"nın tərkibində arbitraj mərkəzinin yaradılması istiqamətində işlər aparılır. Bundan əlavə, BP və SOCAR ölkəmizdə fəaliyyət göstərən çoxsaylı subpodratçılarla yanaşı, güclü iqtisadi baza ingilis hüquq prinsiplərinin inteqrasiyasına yardımçı olan əsaslı tərəfdaşlığın sübutudur. Azərbaycanın əhəmiyyətli enerji istehsal edən ölkə və Mərkəzi Asiya ölkələri üçün fəaliyyət göstərən ticarət mərkəzi kimi ikili statusu nəzərə alınmalı, hüquqi institutlar iqtisadi reallıqlara uyğunlaşdırılmalıdır.

"Biznes ictimaiyyətinin artan rekvizitlərini nəzərə alaraq, Azərbaycan Vəkillər Kollegiyası 2022-ci ildə biznes hüququ və mübahisələrin həlli üzrə ixtisaslaşmış hüquqşünasları formalaşdırmaqla Biznes Hüququ Komitəsini yaradıb. Bu Komitə arbitraj da daxil olmaqla biznes mübahisələrinin həlli üzrə ixtisaslaşmış hüquq ekspertləri ilə əməkdaşlıq edir", – deyə A.Bağırov vurğulayıb.

**Xətayi Əzizov**
**AZƏRTAC-ın xüsusi müxbiri, Tbilisi**

**AZƏRTAC**
**2024, 18 aprel**